**UOT 32:93/94**

**RAFİQ İBRAHİMOV**
*Bakı Dövlət Universitetinin doktorantı*
**ibrahimovrafiq123@gmail.com**

# DEMOKRATİK SÜLH NƏZƏRİYYƏSİ LİBERAL BEYNƏLXALQ NİZAMIN APARICI ELEMENTLƏRİNDƏN BİRİ KİMİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/215-219

*Bu məqalədə Soyuq müharibə sona çatdıqdan sonra formalaşan liberal beynəlxalq nizam, onun formalaşma səbəbləri və əlamətləri təhlil olunur. Burada demokratik sülh nəzəriyyəsinə və onun praktiki nəticələrinə xüsusi diqqət yetirilir və bir neçə keys vasitəsilə nəzəriyyənin tətbiqinin liberal beynəlxalq nizamın qorunub saxlanması istiqamətində hansısa rola sahib olub-olmaması nəzərdən keçirilir.*

*Açar sözlər:* liberal beynəlxalq nizam, ABŞ, demokratik sülh nəzəriyyəsi, milliyyətçilik.

***Giriş.*** Suveren dövlətlər beynəlxalq münasibətlər sisteminin aparıcı elementinə çevrildikdən sonra dünya nizamı anlayışı aktuallıq qazanmağa başlamışdır. Dünya nizamının formalaşması adətən dövlətlərarası müharibələrin məntiqi nəticəsi olmuşdur. 1648-ci ildə 30 illik müharibədən sonra Vestfaliya sülhü, 1815-ci ildə Fransanın imperial müharibələrindən sonra Vyana sülhü, 1919-cu ildə Birinci Dünya müharibəsindən sonra Versal sülhü, 1947-ci ildə isə İkinci Dünya müharibəsindən sonra Paris sülh müqaviləsi və digər anlaşmalar sayəsində dünya nizamı keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. 1991-ci ildə kommunist blokunun heç bir müharibə baş vermədən süqut etməsi də soyuq müharibə dövründə formalaşmış nizamın köklü dəyişməsinə, daha doğrusu, ciddi transformasiyaya məruz qalmasına səbəb olmuşdur. Nəticədə beynəlxalq münasibətlər sistemində ABŞ ilə həm iqtisadi, həm hərbi, həm də siyasi səviyyədə rəqabət apara biləcək böyük güc qalmamış və ABŞ dünya nizamının konturlarını müttəfiqləri ilə birlikdə yenidən cızmağa başlamışdır. Müasir dövrün tədqiqatçıları qeyd olunan proseslər çərçivəsində formalaşmış nizamı aşağıda qeyd olunacaq səbəblərdən dolayı liberal beynəlxalq nizam adlandırmış və bu nizamın xarakterik xüsusiyyətlərini şərh etmişlər. Lakin 2024-cü ildə bu nizamın sütunları çoxdan sarsılmış, bəzi alimlərə görə isə hətta bu nizam artıq tarixə qovuşmuşdur. Bu nizamı araşdıran bir çox mütəfəkkirlərə görə liberal beynəlxalq nizamın aparıcı elementləri hesab edilən demokratik sülh nəzəriyyəsi, institusionalizm və qarşılıqlı iqtisadi asılılıq nəzəriyyəsi nizamın sonunu şərtləndirən əsas amillərdir. Başqa sözlə, bu nizamın özünün struktur elementləri onun məhvinə gətirib çıxarmışdır. Bu məqalədə biz yalnız demokratik sülh nəzəriyyəsinə nəzər yetirəcəyik. İlk növbədə liberal beynəlxalq nizam və onun xüsusiyyətləri və demokratik sülh nəzəriyyəsinin söykəndiyi iddialar qısaca təhlil olunacaqdır. Sonra beynəlxalq liberal nizamın aparıcı qüvvəsi hesab edilən ABŞ-nin demokratik sülh nəzəriyyəsi çərçivəsində atdığı addımlara diqqət yetirilir. Burada Əfqanıstanın işğalı, ölkənin demokratikləşdirilməsi istiqamətində görülən işlər və hasil olunan nəticə nəzərdən keçirildikdən sonra qısaca İraq, Liviya, Suriya və Venesuelada demokratikləşdirmə cəhdlərinin doğurduğu nəticələrə də toxunulur.

***Liberal beynəlxalq nizam və onun əlamətləri***. SSRİ-nin süqutu ilə yarım əsrə yaxın davam edən Soyuq müharibə, eyni zamanda ikiqütblü dünya nizamı öz sonuna çatdı. Bununla da ABŞ yeganə böyük güc olaraq formalaşmaqda olan yeni dünya nizamında aparıcı mövqe qazandı və bu nizamı istədiyi formada dəyişdirməyə başladı. Liberal beynəlxalq nizamın nə olduğunu izah etməzdən əvvəl qısaca nizamın formalarına diqqət etməyə ehtiyac duyulur.

Ümumiyyətlə, istənilən bir nizamın mahiyyəti mövcud qüvvələr balansından asılıdır. Başqa sözlə, beynəlxalq sistemdə neçə böyük gücün olması burada həlledici rol oynayır. Əgər beynəlxalq sistemdə iki və ikidən artıq böyük güc olarsa, o zaman bu nizam ya müvafiq olaraq ikiqütblüdür yaxud da çoxqütblüdür və böyük güclər arasındakı münasibətlər realist nəzəriyyələr əsasında formalaşır. Belə bir beynəlxalq nizamda liberalizm və onun diqtələrinin reallaşmaq imkanı məhduddur. Güc və onun əldə edilməsi dövlətlərin əsas qayğısıdır. Bunun belə olmasının əsas səbəbi dövlətüstü dövlətin, yəni

ümumdünya hökumətinin mövcud olmaması və beynəlxalq münasibətlərdə anarxiyanın hökm sürməsidir. Yəni əgər bir dövlət başqa dövlətə təcavüz yaxud hücum edərsə, dövlətlər hər hansı ali suverenə müraciət edərək bunun qarşısını almaq iqtidarında deyillər. Lakin hər bir dövlətin daxilində ali suverən məhz mövcud hökumətdir və o, Maks Veberin dili ilə desək, zorakı gücün monopoliyası vasitəsilə daxildə vətəndaşlararası münasibətləri müəyyən bir nizamda saxlaya bilir. Lakin beynəlxalq münasibətlərdə belə bir ali suveren mövcud olmadığından dövlətlər təkbaşınadır. Onlar güc toplamağa məcburdur, çünki bir dövlət nə qədər güclüdürsə, bir o qədər də başqa dövlətlərin təcavüzündən amandadır və öz maraqlarını həyata keçirmək imkanı daha çoxdur.

Professor Con Merşaymerə görə əgər beynəlxalq sistemdə yalnız bir böyük güc olarsa, o zaman bu nizam həmin böyük gücün sahib olduğu siyasi rejimdən və bu rejimin ideoloji mahiyyətindən asılı olaraq ya liberal yaxud aqnostik xarakter daşıya bilər. Əgər sözügedən böyük güc liberal demokratik rejimə sahibdirsə, o zaman biz liberal beynəlxalq nizam haqqında danışa bilərik. 1990-cı illərin əvvəlində ABŞ bu iki şərti ödəyirdi: o, həm sistemin yeganə böyük gücü idi, həm də mahiyyət etibarilə liberal demokratik idi. Nəticədə dünya nizamı keyfiyyətcə dəyişərək liberal beynəlxalq nizama çevrildi.

Liberal beynəlxalq nizamın qorunub saxlanılması mövcud yeganə böyük gücün əsas məqsədidir. Həmçinin belə bir nizamın yaradılması və saxlanılması dünyada daimi sülhün bərqərar olması ilə eyni anlam kəsb edir. Bu məqsədə çatmaq və "əbədi sülh"ə nail olmaq üçün isə yeganə böyük güc üç liberal nəzəriyyədən yararlanır: demokratik sülh nəzəriyyəsi, institusionalizm və qarşılıqlı iqtisadi asılılıq nəzəriyyəsi.

***Demokratik sülh nəzəriyyəsi***. Demokratik sülh nəzəriyyəsi iddia edir ki, liberal demokratik quruluşa malik dövlətlər bir-birilə müharibə aparmır. Və buna görə də beynəlxalq sistemdə nə qədər çox liberal demokratik quruluşa malik dövlət olarsa, o qədər də dünyada sülh və əmin-amanlıq bərqərar olunar. Demokratik dövlətlərin bir-birinə qarşı müharibə aparmamağın əsas səbəbləri bunlardır: birincisi, ictimaiyyət, yəni insanlar ümumilikdə sülhpərvərdirlər. Liberal demokratik dövlətlərdə hakimiyyət nümayəndələri seçkilər vasitəsilə sadə insanlar tərəfindən müəyyən edildiyindən həmin hakimiyyət nümayəndələri də bir qayda olaraq sülhpərvər olur. Çünki monarxiyalardan fərqli olaraq liberal demokratiyalarda hakimiyyət ictimaiyyətə məxsusdur və əgər müharibə aparılarsa, onun bütün xərclərini həmin ictimaiyyətin özü qarşılamalı və nəticələrinə isə dözməlidir.

İkincisi, liberal demokratik dövlətlərin qanunun aliliyinə böyük önəm verməsi və aralarında yaranan mübahisələri dinc vasitələrlə həll etməyə yönəlməsidir. Lakin tarixə nəzər yetirdikdə bu iddiaya uyğun gəlməyən hallara da rast gəlmək mümkündür. Bütün beynəlxalq münasibətlər nəzəriyyələri kimi demokratik sülh nəzəriyyəsinin də izah edə bilmədiyi hallar mövcuddur.

Realist beynəlxalq nizamda liberal demokratik dövlətlər başqa dövlətləri demokratikləşdirməkdən çəkinirlər. Çünki burada milli maraqlar ideoloji maraqları üstələyir. Hətta ola bilər ki, liberal demokratik dövlət başqa bir ölkədə demokratik üsullarla hakimiyyətə gələn şəxsi həmin ölkədə dövlət çevrilişini maliyyələşdirərək kənarlaşdırsın. Məsələn, ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsinin 1953-cü ildə İranda və 1970-80-ci illərdə Cənubi Amerikadakı fəaliyyəti buna əyani misal kimi göstərilə bilər. Amma təkqütblü nizamda liberal demokratik dövlətin qarşısında dayana biləcək ikinci bir böyük güc olmadığından o, xarici siyasətdə müəyyən "sərbəstliyə" sahibdir və avtoritar yaxud totalitar quruluşa malik dövlətlərin hətta zor gücü ilə demokratikləşməsi istiqamətində fəaliyyət göstərə bilər. ABŞ-nin Əfqanıstanda və İraqda birbaşa öz silahlı qüvvələri ilə apardığı müharibə, Liviya, Suriya və Venesuelada isə özünün hava qüvvələri və ya yerli üsyançı dəstələri maliyyələşdirməklə həyata keçirdiyi fəaliyyət ABŞ-nin demokratik sülh nəzəriyyəsinin diqtəsi altında hərəkət etdiyini göstərir. Əfqanıstan və İraqın işğalı, eyni zamanda yuxarıda sadalanan digər halların hər biri bir neçə səbəbdən dolayı uğursuzluğa düçar oldu. Bu səbəblər içərisində professor Merşaymerin milliyyətçilik arqumenti xüsusi əhəmiyyət kəsb edir. O, belə hesab edir ki, başqa dövlətlərin demokratikləşdirilməsi üçün böyük gücün hərbi müdaxiləsi səmərəsizdir və bu müdaxilənin effektiv olmamasının əsas səbəbi məhz milliyyətçilik faktorudur. Başqa sözlə, milliyyətçilik liberalizmlə qarşı-qarşıya gələndə onlardan birincisi həmişə qalib ayrılır. Hal-hazırda dünya suveren milli-dövlətlər tərəfindən təşkil olunmuşdur və hər bir millət öz suverenliyinə, yəni öz taleyini kənar müdaxilə olmadan özünün müəyyənləşdirməsinə böyük önəm verir. Əgər başqa millətlər bu prosesə müdaxilə edərsə, o zaman nə qədər "xoş" və "yaxşı" niyyətə

(insan hüquq və azadlıqlarının təmin olunması, azad və ədalətli seçkilərin keçirilməsi və s.) sahib olmasından asılı olmayaraq, həmin millətin ciddi müqaviməti ilə rastlaşır və bu müqavimət həmişə reallaşdırılması planlaşdırılan "xoş" niyyəti üstələyir. Yuxarıda adıçəkilən keyslərə qısaca nəzər yetirək.

***ABŞ-nin demokratik sülh nəzəriyyəsi çərçivəsində atdığı addımlar və onların doğurduğu nəticələr***. 11 sentyabr hadisələrindən bir neçə həftə sonra Taliban əl-Qaidə terror təşkilatını himayə və onun üzvlərini təhvil verməkdən imtina etdiyi üçün ABŞ Əfqanıstana hərbi müdaxiləsini gerçəkləşdirdi. Burada ilkin dövrdə məqsəd yalnız terror qruplaşmalarının zərərsizləşdirilməsi olsa da, zamanla Əfqanıstanda demokratik rejimin bərqərar edilməsi də əsas hədəflərdən birinə çevrildi. Belə ki, 2001-ci ilin sonuna doğru Talibanın hərbi qüvvələri məğlub edilib qonşu Pakistanda sığınacaq tapdıqdan sonra ölkədə yaranmış hakimiyyət və güc boşluğunun doldurulmasına ehtiyac var idi. Yekun nəticədə qurulması nəzərdə tutulan demokratik Əfqanıstan region dövlətləri və ABŞ üçün gələcəkdə hər hansı bir təhlükə daşımayacaqdı. Qeyd etdiyimiz kimi qısa müddət ərzində Taliban məğlub edilərək paytaxt Kabil ələ keçirildi və həmin ilin dekabr ayında Həmid Kərzainin rəhbərlik etdiyi müvəqqəti hökumət quruldu. 2004-cü ilin oktyabrında Əfqanıstanda prezident seçkiləri və bir il sonra parlament seçkiləri keçirildi. Bununla da ABŞ-nin və onun müttəfiqlərinin ölkənin demokratikləşdirilməsi istiqamətində atdığı birbaşa və dolayı addımlar ilkin bəhrəsini verməyə başladı. Lakin bu uğurlar dayanıqlı hal almadı. Belə ki, seçkilərdən qısa müddət sonra milli hökumətin üzvlərinin korrupsiyaya bulaşması ilə bağlı xəbərlər yayıldı, hökumətin legitimliyi getdikcə sarsılmağa başladı. Eyni zamanda Taliban yenidən öz silahlı dəstələrini toplayaraq Əfqanıstandakı ABŞ hərbi qüvvələrinə qarşı mübarizəni davam etdirdi. Nəticədə Taliban ölkənin müəyyən hissəsini yenidən öz nəzarəti altına aldı. Hadisələrin belə inkişaf etməsi ABŞ hökumətini və yeni seçilmiş prezident Obamanı ciddi narahat etməyə bilməzdi. Odur ki, 2009-cu ilin dekabrında Prezident Obama daha 30.000 ABŞ əsgərini Əfqanıstana yollaması ilə bağlı planlarını ictimaiyyətə açıqladı. Təsadüfi deyil ki, o, çıxışında bu addımı belə əsaslandırırdı: "Zorakı ekstremizmə qarşı mübarizə tezliklə bitməyəcək və [bu mübarizə] Əfqanıstan və Pakistan sərhədindən də kənara çıxır. Bu, bizim azad cəmiyyətimiz və dünyadakı liderliyimiz üçün [hələ] davam edən bir sınaqdır". Prezidentin bu çıxışında söylədiyi iki ifadə - "azad cəmiyyət" və "dünyadakı liderliyimiz" ABŞ-nin liberal beynəlxalq nizamın qorunub saxlanılması üçün etdiyi cəhdlərin sözlə ifadəsidir. Lakin bu cəhdlər lazımi nəticəni vermədi. 2017-ci ilin yanvarında ABŞ-də Donald Tramp hakimiyyətə gəldi və bir müddət sonra rəhbəri olduğu hökumət Talibanla danışıqlar apardığını elan etdi. 2020-ci ilin fevralında tərəflər arasında sülh anlaşması imzalandı. Anlaşmaya görə Taliban tərəfi öz öhdəliyinə düşən məsələləri yerinə yetirəcəyi təqdirdə ABŞ hərbi qüvvələri 14 ay ərzində Əfqanıstanı tam tərk edəcək. Planlaşdırılan müddət ərzində baş tutmasa da, 2021-ci ilin avqustunda sonuncu ABŞ əsgərinin Əfqanıstanı tərk etməsi ilə 20 illik işğala son qoyuldu. Eyni zamanda ABŞ hərbi qüvvələrinin ölkəni tərk etməsi ilə paralel gerçəkləşən Əfqanıstan hökuməti ilə Taliban arasındakı sülh danışıqları hər hansı nəticə vermədi və ikincinin silahlı dəstələri 2021-ci ilin avqust ayında paytaxt Kabili ələ keçirdi və bununla da Taliban yenidən hakimiyyətə gəldi. Beləliklə, 20 il ərzində ümumilikdə 2 trilyon dollardan çox vəsait sərf etməsinə baxmayaraq ABŞ-nin "Əfqanıstanın demokratikləşdirilməsi" əməliyyatı tam uğursuzluqla yekunlaşdı.

İraqda da ABŞ işğalından sonra yaradılan hökumət özünü doğrultmadı. Qısa müddət sonra şiə və sünni qüvvələr arasında hakimiyyət uğrunda mübarizə hərbi-siyasi xarakter alaraq minlərlə insanın həlak olmasına, ağır yaralanmasına və doğmalarını itirməsinə gətirib çıxardı. ABŞ hərbi qüvvələri tədricən İraqı tərk etməyə başladıqdan sonra yaranmış güc boşluğunu İŞİD terror təşkilatı doldurdu və regionda xaos və tələfat nəinki yekunlaşdı, əksinə daha da artdı. Liviya və Suriyaya da ABŞ-nin müdaxiləsi uğursuz oldu və hər iki ölkənin dərin vətəndaş müharibəsinə sürüklənməsinə gətirib çıxardı. 2021-ci ildə Bəşər Əsəd Rusiyanın dəstəyi ilə ölkənin əksər hissəsində hakimiyyətini yenidən bərpa etdi və legitim prezident kimi fəaliyyət göstərməyə başladı. Liviyada isə 2011-ci ildə başlamış vətəndaş müharibəsi hələ də davam etməkdədir, ölkənin qərbində beynəlxalq ictimaiyyət və BMT tərəfindən tanınan bir hökumət, şərqində isə başqa hökumət ölkədə hakimiyyətə iddialıdır. Eyni zamanda ölkədə mövcud silahlı dəstə başçıları da özünəməxsus iddialara sahibdir.

Venesuelada da ABŞ-nin dəstəklədiyi Xuan Gaydonun rəhbərliyi altındakı müxalifət qüvvələri məğlubiyyətə uğradı və Prezident Maduronun hakimiyyəti qorumaq üçün gördüyü sərt tədbirlərə cavab olaraq tətbiq olunan sanksiyalar əhalinin rifah səviyyəsinə ciddi zərbə vurmaqla yanaşı böyük

qaçqın dalğasının yaranmasını sürətləndirdi. Eyni proses, yəni yüzminlərlə qaçqının öz doğma vətənindən didərgin düşməsi Suriya, Liviya, Əfqanıstan və İraq üçün də xarakterikdir. Bütün bunlar onu göstərir ki, demokratik sülh nəzəriyyəsi liberal beynəlxalq nizamın qorunub saxlanması üçün nəinki özünü doğrultdu və dünyada "əbədi sülh"ə töhfə verdi, əksinə hədəf alınan dövlətlərin və onların əhalisinin daha acınacaqlı vəziyyətə düşməsinə gətirib çıxardı.

***Nəticə***. Bu uğursuzluqlar ABŞ-nin beynəlxalq nüfuzuna mənfi təsir göstərdi və liberal beynəlxalq nizamın sonunu sürətləndirdi. Qeyd olunan müdaxilələrin uğursuzluğa düçar olmasının əsas səbəbi yuxarıda da qeyd etdiyimiz kimi milliyyətçilik amili idi. Millətin işğalçı və təcavüzkar qüvvəyə qarşı müqaviməti kifayət qədər sərt və dayanıqlıdır. İşğalçı dövlət sosial mühəndislik və dövlət- və millətqurma (*state- and nationbuilding*) layihələri vasitəsilə hədəf dövlətin institutlarını liberal demokratik prinsiplərə uyğunlaşdırmağa çalışarkən məhz bu müqavimətlə üz-üzə qalır. Nəticədə qeyd olunan layihələrin icrası üçün xərclər getdikcə artır, gözlənilən və arzuolunan məqsədlərə nail olmaq mümkün olmur və tam əksinə olaraq liberal beynəlxalq nizamın əsasları sarsılır.

## ƏDƏBİYYAT

1. Bound to Fail: The Rise and Fall of the Liberal International Order / John J. Mearsheimer – International Security 43 – № 4 (Spring 2019) – p.7-50.
2. Kant, Liberal Legacies, and Foreign Affairs / Michael W. Doyle – Philosophy & Public Affairs – Vol. 12, No. 3 (Summer, 1983) – p.205-235.
3. Kant, Liberal Legacies, and Foreign Affairs, Part 2 / Michael W. Doyle – Philosophy & Public Affairs – Vol. 12, No. 4 (Autumn, 1983) – p.323-353.
4. Human and Budgetary Costs to Date of the U.S. War in Afghanistan, 2001-2022, Watson Institute for International and Public Affairs, 1 avqust 2021-ci il. - https://watson.brown.edu/costsofwar/figures/2021/human-and-budgetary-costs-date-us-war-afghanistan-2001-2022 [Müraciət tarixi: 02.09.2024].
5. Obama Adds Troops, but Maps Exit Plan, New York Times, 1 dekabr 2009-cu il. - https://www.nytimes.com/2009/12/02/world/asia/02prexy.html [Müraciət tarixi: 02.09.2024].
5. The Great Delusion: Liberal Dreams and International Realities / John J. Mearsheimer – Yale University Press – 2018 – p. 194-204.
6. The Tragedy of Great Power Politics / John J. Mearsheimer – W.W.Norton & Company – 2001 – p.29-55.
7. Trump's deal with the Taliban, explained, Washington Post, 26 avqust 2021-ci il. - https://www.washingtonpost.com/politics/2021/08/20/trump-peace-deal-taliban/ [Müraciət tarixi: 01.09.2024].
8. U.S.-Taliban Peace Deal: What to Know, Council on Foreign Relations, 2 mart 2020-ci il. - https://www.cfr.org/backgrounder/us-taliban-peace-deal-agreement-afghanistan-war#chapter-title-0-4 [Müraciət tarixi: 01.09.2024].

**РАФИК ИБРАГИМОВ**
*Докторант, Бакинского Государственного Университета*

## ТЕОРИЯ ДЕМОКРАТИЧЕСКОГО МИРА КАК ОДИН ИЗ ВЕДУЩИХ ЭЛЕМЕНТОВ ЛИБЕРАЛЬНОГО МЕЖДУНАРОДНОГО ПОРЯДКА

В статье анализируется либеральный международный порядок, сформированный после окончания Холодной войны, причины его формирования и его признаки. Здесь особое внимание уделяется теории демократического мира и ее практическим результатам, а также после ее применения в нескольких случаях рассматривается роль, которую она могла бы или не могла бы играть в поддержании либерального международного порядка.

*Ключевые слова:* либеральный международный порядок, США, теория демократического мира, национализм.

**RAFIG IBRAHIMOV**
*Ph.D candidate, Baku State University*

## DEMOCRATIC PEACE THEORY AS ONE OF THE LEADING ELEMENTS OF LIBERAL INTERNATIONAL ORDER

This article analyzes the liberal international order formed after the end of the Cold War, the causes of its formation and its indications. Here, special attention is paid to the democratic peace theory and its practical results, and after its application in several cases the considered role it might or might not have in maintaining the liberal international order.

*Keywords:* liberal international order, USA, democratic peace theory, nationalism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 sentyabr 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: f.ü.f.d. Nazim Ibadov, s.e.d. Adil Mirabdullayev.*